# Azərbaycan Sankt-Peterburq Beynəlxalq Konservatoriya Həftəsində təmsil olunur

**XXIV Beynəlxalq Konservatoriya Həftəsi festivalı şənbə günü Sankt-Peterburqun Dmitri Şostakoviç Filarmoniyasının böyük zalında bayram konserti ilə açılacaq. Bu tədbir 8 ölkədən musiqi universitetlərinin və qonaqların iştirakı ilə noyabrın 5-dək şəhərin müxtəlif məkanlarında, o cümlədən Mariinski Teatrında baş tutacaq.**



Proqramlarda Sankt-Peterburq, Moskva və Nijni Novqorod konservatoriyaları, Belarus Dövlət Musiqi Akademiyası (Minsk), Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası (Azərbaycan), Özbəkistan Dövlət Konservatoriyası (Daşkənd), Belqrad İncəsənət Universitetinin (Serbiya) solistləri və yaradıcı kollektivləri, həmçinin Çinin ali musiqi məktəbləri, Macarıstan və Livandan olan qonaqlar iştirak edəcəklər.

Əsas hadisələrə iki dünya premyerası daxildir. Dövlət Ermitajı Baş qərargahının Atriumunda Sankt-Peterburq bəstəkarları Anton Tanonov və Sergey Yekimovun "Kozma Minin və Nijni Novqorod şəhərinin əfsanəsi" adlı birgə kompozisiyası təqdim olunacaq. Bəstəkar Yanq Cinpenqin "Çin şüası" kantatasının ifası Rusiya ilə Çin arasında diplomatik münasibətlərin qurulmasının 75-ci ildönümünə həsr olunacaq.

Ermitaj Teatrında keçiriləcək "Klassiklər - Etno - XXI" layihəsində Özbəkistan Dövlət Konservatoriyasının Xalq Çalğı Alətləri Ansamblı, eləcə də Sankt-Peterburq Konservatoriyasının solistləri və Rus Xalq Çalğı Alətləri Orkestri çıxış edəcəklər.

Beynəlxalq Konservatoriya Həftəsinin innovativ hissəsi Ekspert Şurasında mədəniyyət müəssisələrinin rəhbərlərinin iştirakı ilə musiqi tədbirlərinin hazırlanması və təqdimatı üçün "Gənclərin İdeyaları Forumu"nu özündə əks etdirən "Festival Biznes Platforması" layihəsi olacaq. Konservatoriyaların və şəhərin yaradıcılıq universitetlərinin tələbələri mədəniyyət və incəsənət sahəsində gələcək tədbirlərin təşkilatçıları kimi özlərini sübut etmək imkanı əldə edəcəklər. "Festival Biznes Platforması"nda həmçinin "Sankt-Peterburq Konservatoriyasının Könüllülər Klubu"nun yaradılmasına həsr olunmuş tələbə-könüllülər hərəkatının müxtəlif sahələrinin nümayəndələrinin görüşü keçiriləcək.

Festivalın elmi-nəzəri bölməsində Puşkin, Qlinka, Rimski-Korsakovun yubileylərinə həsr olunmuş "Sankt-Peterburq sənətinin ənənələri" adlı elmi konfrans və sənədli sərgi, xor və opera-simfonik dirijorluğu, nəfəs alətlərində ifaçılıq, konsertin idarə edilməsi üzrə tədris seminarları, yaradıcılıq görüşləri və ustad dərsləri olacaq. Sənətşünaslıq doktoru, Moskva Konservatoriyasının professoru, "Muzıkalnaya jizn" jurnalının baş redaktoru Yevgeniya Krivitskayanın rəhbərliyi ilə "Musiqi jurnalistikası üzrə yaradıcılıq emalatxanası" da öz işini davam etdirəcək. Ənənəvi olaraq, "Beynəlxalq Konservatoriya Həftəsi"nin tədbirləri ilə bağlı icmallar, videoreportajlar, müsahibələr və esselərin yaradılması məqsədilə "Festivalın nəbzi" müsabiqəsi keçiriləcək.

Azərbaycan.- 2024.- 29 oktyabr (№ 238).- S.11.